## ƏDƏBİYYAT VƏ FOLKLOR

**UOT 82.0**
**https://doi.org/10.59849/2218-4783.2025.1.175**

**FƏRMAN XƏLİLOV**

# HÜSEYN RAZİNİN "GÜNDƏLİK"LƏRİNDƏ ƏDƏBİYYAT MƏSƏLƏLƏRİ

*Hüseyn Razinin 30 illik bir dövrü (1964-1993) əhatə edən "Gündəlik"lərində Naxçıvan, həmçinin Azərbaycan və onun daxil olduğu Sovet İttifaqında baş verən bəzi ictimai-siyasi və ədəbi-mədəni proseslərin gedişatı əks etdirilməklə yanaşı, ədəbiyyat məsələlərinə də geniş yer verilib.*

*Məqalədə şairin 28 cildlik "Gündəlik"lərinin ədəbiyyat məsələlərindən bəhs edən hissələri ilk dəfə olaraq tədqiqata cəlb olunur. Şairin Naxçıvan, Bakı, həm də Azərbaycandan kənarda keçirilən yazıçılar qurultayları, plenumları, yubileylər və digər tədbirlərdə iştirakı və çıxışları, həmçinin ədəbiyyat tarixi və nəzəriyyəsinə aid düşüncələri araşdırılır və dəyərləndirilir.*

*Müəllif belə qənaətə gəlir ki, H.Razinin ədəbiyyat məsələləri ilə bağlı fikir və mülahizələrinin XX əsrin ikinci yarısında Naxçıvanda elmi mühitin formalaşması və inkişafında özünəməxsus əhəmiyyətli rolu olmuşdur.*

**Açar sözlər:** *Hüseyn Razi, "Gündəlik", ədəbiyyat məsələləri, Naxçıvan ədəbi mühiti, ədəbi-mədəni tədbirlər.*

**Giriş.** "Gündəlik"lərdən bəzi qeydlərə istinad edərək əvvəlcə şairin yaradıcılıq laboratoriyasının ümumi mənzərəsi haqqında müəyyən təsəvvür yaratmağı məqsədəuyğun hesab edirik. Sonra "Gündəlik"lərdə öz əksini tapan digər ədəbiyyat məsələlərinə toxunacağıq.

**Şairin yaradıcılıq laboratoriyası.** H.Razi anadan şair doğulmuşdu. Şairlik onun fitrətində idi, sonradan qazanılmış vərdiş, yaxud bacarıq deyildi. Müasiri professor Sevindik Vəliyevin həssas müşahidəsinə görə, "onun içərisində sanki püskürməyə hazır olan bir vulkan var idi... Sanki yeriyəndə də, yemək yeyəndə də, yatanda da şeir deyirdi" [7, s. 44].

"Gündəlik"lərdə S.Vəliyevin bu müşahidəsini qüvvətləndirən və bəzi əlavələrlə onu genişləndirən qeydlər çoxdur:

**1964:** 8 avqust. Bakıdan qayıdıram. **Vaqonda** bu sətirləri qaralayıram...

**1964:** 18 sentyabr. Mətbəxdə **buxar qızdırıcısının yanında bardaş qurub** birnəfəsə altı şeir yazıram.

**1964:** 7 noyabr. Gecə **yerimin içində** xeyli düşünüb "Kölgələr" və ya "Havadarlar" adlı bir pyes yazmağı qət edirəm.

**1966:** 13 sentyabr. Günortadan sonra **plyajda uzanıb** (Krım) "Rüşvət məzar" şeirini qaralayıram.

**1967:** 4 fevral. **İdarədə** "Mənim günahım" adlı şeir qaraladım.

**1967:** 9 oktyabr. **Gecə yarısı** "Qəhər" adlı bir şeir qaralayıram.

**1968:** 15 oktyabr. Bu gün **sahil gəzintisindən sonra** iki qəzəl yazıram.

**1977:** 11 sentyabr. Soyuq **otaqda büzüşə-büzüşə** bir şeir qaralayıram.

**1978:** 12 yanvar. **Xəstəyəm,** ancaq rahat durmaq olmur. Bir neçə misra qaralayıram.

**1979:** 25 sentyabr. Səhər **dənizdə qum üstündə** sətirlər yazdım.

**1980:** 27 may. Bu gün günortadan sonra evdən **işə gedəndə yolda** bir şeir düşündüm.

**1987:** 28 aprel. **Yuxuda** bir şeir yazmışdım. Səhər ancaq rədifləri yadımda qalmışdı: yoxam mən, baxam mən, toxam mən və s.

Söz sənətkarları üçün "yaradıcılıq əzabı" deyilən ağır, üzücü, lakin yaşanmasının ləzzəti sonra duyulan gərgin anlar vardır. Əsər ərsəyə gələndən sonra sənətkar bu əzabdan xilas olsa da, yeni əsərlər dünyaya gətirmək üçün növbəti əzablara qatlaşmağa hazırlaşır. Bu hal daha çox əsl şairə və yazıçıya xas olan bir keyfiyyətdir. Bax, Hüseyn Razi belə bir şair olmuşdur. "Gündəlik"lərindən

nümunə gətirdiyimiz aşağıdakı qeydlər onun narahat və təlatümlü şair təbiətini, ilham qaynaqlarını, keçirdiyi yaradıcılıq əzablarını ifadə edən təbii hisslərini, eyni zamanda təbini ərşə çıxaran amilləri çılpaqlığı ilə nümayiş etdirir.

**1965:** 23 may. Şəhriyarın şerinə nəzirə yazmaq arzusundayam... 4 saatdan bir qədər artıq düşündükdən sonra qaraladığım varaqlarla maşına yanaşıram. Şeiri yazarkən çox həyəcanlanıb özümü üzdüyümdən başımda qorxunç bir gurultu var. Heç vaxt belə baş ağrısı körməmişəm.

**1966:** 4 avqust. Axşamdan xeyli keçsə də, yuxu məndən uzaqdır. Xəyallar quzğun sürüsü kimi başım üstə fırlanır, mühakimələrim bir-birini əvəz edir.

**1967:** 17 avqust. Şeir sətirləri üzərində düşünürəm. Fikirlərim rabitəsiz, xəyalım səyyardır. Heç bir söz üstündə qərar tuta bilmirəm.

**1968:** 29 dekabr. "Əbədi fikirlər məhbəsindəyəm" adlı şeir üzərində düşünürəm. Lakin şeir yazılmır. Bu haqda yenə düşünmək lazım gələcəkdir.

**1971:** 4 aprel. Mövzu var, söz var, maraq və ehtiras yoxdur.

**1971:** 16 sentyabr. Dənizdə qüdsi bir romantika var. Delfinlər rəqs edir. "Zirvəyə qalxıram" adlı bir şeir yazıram.

**1972:** 25 fevral. Şeir yazmağa nə əlim, nə də ürəyim gəlir. Axı kimə, nəyə, nəyi, necə yazmaq suallarına cavab tapmaq olmur.

**1974:** 25 fevral. Qafiyə: Afərin, min-min, siz deyin...

**1975:** 4 fevral. Naxçıvandayam. 50 yaşımla əlaqədar şeir yazmaq istəyirəm. Ancaq bir şey çıxmır. Əlasını yaza bilmirəm, avarasına da mən getmirəm.

**1977:** 21 dekabr. Mövzu: Yalanlar tutub dövrəmizi, uşaqları yalandan qoruyuram. Onlar barı yazıqdır.

**1978:** 28 oktyabr. Ölmək kimidir, Görə bilmək kimidir. Yoxuşlarda durur, Qaşlarda durur. Maraqdan keçir, Dodaqdan keçir...

**1979:** 18 oktyabr. Poetik xəyalların dilə gəlməsi üçün imkan yoxdur. Ehtiyaclar (maddi və mənəvi) qoşun kimi sıralanıb.

**1980:** 9 iyun. Belə bir şeir yaz ki, qanun, kitab bir nəfərdir, bir meşənin bir hakimi, bir sözü var. Hara getsən söz onundur, qanun axtarma.

**1981:** 6 yanvar. Anlaşılmaz fikirlərin qarmağından çıxmaq olmur. Qaranlıq meşədə səmti bilinməyən bir cığırla gedən adama bənzəyirəm. Həyatda nə qədər yanılmaq olar?

**1981:** 21 sentyabr. *(Peredelkino – F.X.).* Axşam üstü qeyri-adi bir romantika, əsrarəngiz bir qüdsiyyət aləminə düşürəm. Şeir məni çağırır, lakin bütün gecəni düşünüb yazdığımı tamamlaya bilmirəm. Belə şeirləri ömrün sonuna kimi tamamlamaq çətindir. Gözəllik aclığı insanı son saata kimi müşayiət edir.

**1983:** 20 sentyabr. Tozlu-torpaqlı, çiskinli bir gündür. "Xırman" şeirini yazdım. Təzə mövzular: Nikbin sağlıq kimi "şərəfinə" rədifi ilə. 7-ci qitə. Ürəyim, düşüncələrim..., Hə qədər ki..., Təzadlar var, yuxum ərşə çəkiləcək. "Lənət" kimə, nəyə? "Şübhələr çoxalır, inam azalır" İsaya. "Rənglər" dünyanın rəngləri, sözün də...

**1986:** 8 yanvar. Heç nə yazmadığım üçün narahatlıq var...

**1986:** 21 avqust. Yenə bir şeir qaralamaq istəyirəm. Nikbinlik məndən çox uzaqdır. Həyat başdan-başa məzmunsuz və tutqun görünür mənə...

**1988:** 14 yanvar. Bu axşam "Gəlsə" və "Bu axşam" adlı şeirlər qaralamağa çalışdım. Zaman o qədər poeziyadan – saf, büllur poeziyadan uzaqdır ki, istər-istəməz ilhamın yolunu kəsir...

**1991:** 17 aprel. Həyatımız da səksəkəli keçir, bilmirik bir saatdan sonra belə nə olacaq? Şeir yazmaq barədə düşünmək bir yana, heç gündəlik fikirləri belə sapa düzmək olmur.

**1992:** 18 iyun. Nə qədər çalışsam da, "Amandı, ya rəbbi" adlı şeiri yazmağa qüdrətim çatmır. (Səbəbi, əsəbi, tələbi, ya rəbbi).

**Şairin oğlu Əli Rzayevin xatirələrindən:** Atamın özünəməxsus yaradıcılıq priyomları var idi. Bəzən yazacağı şeirlərin qafiyələrini əvvəlcədən yazıb şeiri bu qafiyələr daxilində “yığardı”. Dilə, qafiyələrin sərrastlığına, deyiləcək fikrə xüsusi diqqət yetirərdi [6, s. 72].

“Gündəlik”lərdə 1965-1993-cü illərdə Naxçıvanda ədəbi proseslə bağlı bir sıra maraqlı və dəyərli məlumatlar da vardır ki, onlar şairin həm çoxşaxəli fəaliyyəti, həm də Naxçıvanın o dövrdəki ədəbi-mədəni mühitinin ümumi mənzərəsi haqqında müəyyən təsəvvür yaratdığı üçün mühüm əhəmiyyətə malikdir.

**Naxçıvan ədəbi-mədəni mühiti.** “Gündəlik”lərin bəhs edilən dövrdə Naxçıvanın ədəbi-mədəni mühitinin ümumi mənzərəsini əks etdirən səhifələrində Tibb məktəbi, APİ Naxçıvan filialı, müxtəlif orta məktəblərin müəllim, tələbə və şagirdləri, Elektrotexnika zavodu, Tikiş fabrikinin fəhlələri, Naxçıvanda fəaliyyət göstərən M.S.Ordubadi adına Respublika Kitabxanası və A.Babayev adına Uşaq Kitabxanasının oxucuları və Naxçıvan ziyalılarının yığıncaqları; Şair, yazıçı və alimlərdən Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Abbas Səhhət, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, Müzəffər Nəsirli, Yusif Məmmədəliyev, aktyorlardan İbrahim Həmzəyev, İsa Musayev, Əyyub Haqverdiyevin Naxçıvanda keçirilən yubiley gecələri; Naxçıvan, Şərur, Ordubad, Şahbuz Babək, Culfadakı ədəbi məclislər; Bu və ya digər münasibətlə Naxçıvana gələn şair və yazıçılardan Rəsul Rza, Adil Babayev, Məmməd Araz, Fikrət Qoca, Hüseyn Arif, Fikrət Sadıq, Nəbi Xəzri, Məmməd İsmayıl, Xəlil Rza, Bəxtiyar Vahabzadə, Nəriman Həsənzadə, Söhrab Tahir, Hüseyn Arif, Oleq Şestinski, Cabir Növruz, Sabir Rüstəmxanlı, Qabil, Tofiq Mahmud, Ayaz Vəfalı, Səyavuş Sərxanlı, Mirzə İbrahimov, Əli Vəliyev, İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Yusif Əzimzadə, Yusif Səmədoğlu, Elçin, Anar, elm xadimlərindən Məmmədcəfər Cəfərov, Abbas Zamanov, Əziz Şərif, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Qulu Xəlilov, Qulam Məmmədli, mədəniyyət və incəsənət xadimlərindən Turan Cavid, Azər Rzayev, Rəşid Behbudov, Canəli Əkbərov, Baba Mirzəyev, Səkinə İsmayılova, Məlik Dadaşov, Tahir Salahov, Maral Rəhmanzadə və başqalarının qarşılanması və iştirakı ilə keçirilən tədbirlər; Naxçıvanda keçirilən RSFSR və Özbəkistan günləri, Azərbaycan yazıçılarının plenum və müşavirələri, Bakı, Gəncə və İrəvan teatrlarının Naxçıvana qastrol səfərləri, Sabir poeziya günləri, Əshabi-Kəhfdə “Məlikməmməd”, Culfa və Ordubad ərazilərində “Nəsimi” və “Babək” filmlərinin çəkilməsi; Naxçıvanın tanınmış simalarından olan aktyor İbrahim Həmzəyev, bəstəkar Məmməd Ələkbərov, professor Əziz Şərif, hərbçi polkovnik Nemət Kərimov və nəhayət, Hüseyn Cavidin cənazəsinin qalıqlarının dəfn mərasimləri; Müəllifin “Odlu diyar”, “Günəş”, “Arxalı dağlar” pyeslərinin Naxçıvan teatrında tamaşaya hazırlanma (oxunuşu, quruluşu, rol bölgüsü, musiqi tərtibatı) prosesi və başqa tədbirlərdə H.Razinin iştirakı, görüşləri, çıxışları, müsahibə və söhbətləri, mülahizə və təklifləri, iradları və tövsiyələri haqqında müəyyən təsəvvür əldə etmək mümkündür.

**Bakıda ədəbi mühit.** H.Razi mərkəzdən uzaq bir məkanda – Naxçıvanda yaşasa da, respublikanın paytaxtı Bakıda formalaşan qaynar ədəbi mühitdən təcrid olunmamış, həmin ab-hava ilə nəfəs almışdır.

**Dosent Elxan Yurdoğlu-Məmmədov:** “Azərbaycan poeziyasının bir çox dəyərli nümayəndələri olmuşdur ki, onlar regionlarda yaşamalarına baxmayaraq mərkəz ağırlıqlı və mərkəz sanballı yaradıcılıq yolu keçmişlər. Bu mənada yuxarıdakı fikirlərimizi Naxçıvanda yaşayıb yaradan Azərbaycanın əməkdar incəsənət xadimi, şair-dramaturq, publisist və tənqidçi Hüseyn Raziyə birbaşa şamil edə bilərik” [8, s. 74].

H.Razinin “Gündəlik”lərindən öyrənmək olur ki, şair ömrünün sonunadək hər ilin bütün aylarında bir yox, bir neçə dəfə Bakıya getmiş, bu gedişlərin bir çoxu da uzunmüddətli səfərlər olmuşdur. Həmin səfərlər zamanı onun elm, ədəbiyyat və mədəniyyət xadimləri ilə görüşləri və söhbətləri, Azərbaycan Yazıçılar İttifaqının 1954-cü ildən sonra keçirilən bütün qurultay və plenumlarında və digər tədbirlərdə iştirakı, Bakı və Sumqayıt radio və televiziyasında etdiyi çıxışlar və haqqında gedən verilişlər, 1965, 1970, 1980 və 1984-cü illərdə Bakıda keçirilən Naxçıvan günlərinin gedişatı,

tanınmış şəxsiyyətlərin yubiley gecələri, dəfn mərasimləri, şeir məclisləri, teatr tamaşaları, bir sıra nümayəndə heyətinin tərkibində Sumqayıt, Gəncə, Şuşa, Ağdam, Bərdə, Qazax, Xankəndi və Moskva səfərləri haqqında "Gündəlik"lərdə xeyli maraqlı və ətraflı qeydlər vardır. Bu qeydlərdən məlum olur ki, H.Razi Bakıda həm rəhbərlik, həm də ədəbi ictimaiyyət tərəfindən ciddi bir şair, səriştəli mədəniyyət xadimi kimi qəbul olunmuşdur. Şairin bir sıra mötəbər tədbirlərə dəvət olunması, həmin tədbirlərdə məruzə və çıxış etməsinin məsləhət bilinməsi, üç dəfə (1981, 1986, 1991) Azərbaycan Yazıçılar İttifaqının təftiş komissiyasına üzv seçilməsi ona göstərilən dərin hörmət, ehtiram və inamın nəticəsi idi.

**Şair və yazıçılar haqqında.** "Gündəlik"lərdə şairin Azərbaycan, keçmiş ittifaq və dünya yazıçılarının həyat yolu, fəaliyyəti və yaradıcılığı haqqında məqalələri və çıxışları, Naxçıvanda müasir ədəbi mühitin səciyyəsi və inkişafı haqqında mülahizələri, ədəbiyyat məsələləri ilə bağlı Naxçıvan radiosu və televiziyasındakı çıxışları, İttifaq respublikaları və xarici ölkələrə səfərləri zamanı ədəbi-mədəni əlaqələrlə bağlı təəssüratları, qeyri-mətbu əsərlərinin (şeir, hekayə, roman, pyes, tərcümə, çıxış, məruzə, məqalə, fraqmentlər) mətnləri (əlyazma və makina variantları) haqqında da maraqlı və zəngin materiallar öz əksini tapmışdır.

H.Razinin "Gündəlik"lərində rast gəldiyimiz ayrı-ayrı şair və yazıçılara həsr olunan "Lirika həyatın nəfəsidir" [3, IV cild, s. 224-233], "Bahar romantikası" [3, VI cild, s. 25-29], "Qəzəlxan şairlər" [3, VI cild, s. 34-42], "Qardaş Litva xalqının ədəbiyyatı: E.Mejelaytis" [3, VI cild, s. 49-58], "Vaqifin arzuları" [3, VI cild, s. 112-12], Dünya poeziyasından səhifələr [3, VI cild, s. 129-135], "Qafqazın poeziya çiçəkləri" [3, VII cild, s. 136-146], "Şair, tərcüməçi, ədəbiyyatşünas" [3, X c, s. 99-110], "Möhtəşəm şeir çələngi" [3, XII cild, s. 113-123], Xan qızının nəğmələri. [3, XIII cild, s. 57-65], "Möhtəşəm poeziya səltənəti" [3, XIII cild, s. 76-85], "Sözlə sazın qüdrəti" [3, XIII cild, s. 179-187], "Qafqazın poeziya çiçəkləri" [3, XIV cild, s. 207-215], "Gözəllik və məhəbbət lirikası" [3, XV cild, s. 34-44], "Sovet ədəbiyyatının ulduzları" [3, XV cild, s 162-169], "Cəfər Cabbarlının poeziyası" [3, XVIII cild, s. 18-26], "Humanizm və ədalət carçısı" [3, XVIII, s. 27-36], "Cəfər Cabbarlının poeziyası" [3, XVIII cild. s. 18-26], "Humanizm və ədalət carçısı" [3, XVIII, s. 27-36], "Hüseyn Cavid yaradıcılığında fəhlə mövzusu" [3, XXI cild. s. 231-240], "Böyük sənət, qüdrətli sənətkar" [3, XV cild, s. 58-68] kimi məqalə, oçerk və çıxışlarında ədəbi şəxsiyyət, onun yaradıcılıq istiqaməti, əsərlərinin ideyası, xəlqiliyi, müasirliyi, bədii məziyyətləri və digər xüsusiyyətləri daha qabarıq şəkildə oxuculara, dinləyicilərə və tamaşaçılara təqdim edilir.

**"Gündəlik"lərdən nümunələr.** H.Razinin Naxçıvan ədəbi mühiti və ədəbi qüvvələri haqqında "Gündəlik"lərində özünə yer tapan və indiyədək heç yerdə çap olunmayan çıxışlarından bir neçə nümunə:

24 iyun 1980-cı ildə Naxçıvan televiziyasında etdiyi çıxışın mətni "Gündəliy"inə əlavə edilib. Onun bir yerində yazılır: "Yazıçı xalq üçün, vətən üçün, cəmiyyət üçün çalışmalıdır... O yalnız bu günün deyil, sabahın da yollarını görməyə can atan məşələ çevrilməlidir" [3, XIX cild, s. 99].

Sonra H.Razi gənc yazıçı Güllü Məmmədovanın bəzi mənsur şeirləri, povest və hekayələri, Möhsün Möhsünovun felyeton və kiçik hekayələri, yazıçı-dramaturq Məmmədəli Tarverdiyevin yaradıcılıq yolu haqqında söz açır, onların əsərlərinin mövzusu, ideya-məzmun və dil-üslub xüsusiyyətləri ilə bağlı bəzi mülahizələrini bildirir.

**1973:** 14 mart Naxçıvanda gənc yazıçıların müşavirəsi var. Burada çox gurultulu çıxışlar olur. Məmməd Araz və Fikrət Qoca da danışırlar. Mən də çıxış edirəm. Sözümün məzmunu budur ki, ədəbiyyat qərarlar, göstərişlər, hökmlərlə yaranmır. İstedadı cəza tədbirləri ilə məhv etmək olmaz. Arzu, məhəbbət və qayğı lazımdır. Sənətkar ürəklərin görünməyən tərəflərini görməli, duyğuları danışmalı, zamanın əks-sədası olmalıdır. Yalanlar ədəbiyyatı zəncirləyib söz yığınına döndərir, məhv edir.

**Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin 1977-ci ildə Naxçıvanda keçirilən səyyar plenumunda H.Razinin çıxışından:** "Naxçıvanda yaşayan yazıçıların və gənc ədəbi qüvvələrin tənqidçi fikrinə, alim sözünə, ağsaqqal sənətkar mülahizəsinə daha çox ehtiyacı vardır. Belə ki,

Naxçıvanda ədəbi mühitin inkişafına mətbuat və ədəbi təhlil imkanları məhduddur. Bizim yeganə bir qəzetimiz vardır. Muxtar respublikanın bütün iş sahələrini əhatə edən "Şərq qapısı" qəzeti isə ədəbi mühitin getdikcə artan tələblərini əhatəli halda yerinə yetirə bilməz. Biz qəzetdə tez-tez bədii parçalar çap etsək də "Şərq qapısı" ədəbi mühitin orqanı deyildir. Onun daha vacib və ciddi vəzifələri vardır. Buna görə də bizim mətbuat imkanlarımız haqqında ciddi düşünmək lazımdır.

Yazıçılar ittifaqının orqanları Naxçıvanda yaşayan yazıçıların əsərlərinə bayramlar və əlamətdar günlərdə deyil, həmişə qayğı göstərməyə borcludurlar. Qoy hörmətli tənqidçilərimiz bizim kitablarımıza və tamaşaya qoyulan pyeslərimizə də laqeyd olmasınlar. Biz öz ağsaqqallarımızın səmimi sözlərini təsadüfi görüşlərdə deyil, həmişə eşitmək istəyirik. Öz məqalələrinə bir sicirləmə ad salıb bəzən də əhəmiyyətli bir iş görməmiş qələm sahiblərini uzun-uzadı tərif yağmuruna tutan yazıçılarımıza xatırlatmaq istəyirik ki, belə hallarda Naxçıvanı ədəbi prosesdən təcrid etmək heç də yaxşı səslənmir. Naxçıvan həmişə Bakı ilə yanaşı durmalı, bir ədəbi sexin məsulları kimi təqdim və təsvir edilməlidir" [3, XVI cild, s. 153].

Bu tipli yazılar və çıxışlar H.Razinin müasir ədəbi prosesi ardıcıl olaraq izlədiyini göstərməklə yanaşı, həm də bu prosesi özünəməxsus yanaşma tərzi ilə dəyərləndirməsini nümayiş etdirir.

**Müəllifi olduğu əsərlər və tərcümələri.** H.Razinin "Gündəlik"lərinin müxtəlif cildlərində həm çap olunan, həm də hələlik işıq üzü görməyən müxtəlif janrlı bədii əsərlərinin makina variantlarına da rast gəlinir. Bu variantlarla tanışlıq onun bədii yaradıcılığı haqqında tam və sistemli şəkildə araşdırmalar aparmağa və yeni orijinal mülahizələr irəli sürməyə imkan verir.

H.Razinin ədəbi irsinin bir hissəsini müxtəlif xalqların ədəbiyyatından etdiyi tərcümələr təşkil edir. Həmin tərcümələrin bir qismi müxtəlif qəzet, jurnal, antologiya, almanax və kitablarda çap olunmuş, müəyyən hissəsi Naxçıvan radiosu və televiziyasında müvafiq verilişlərdə səsləndirilmiş, digər qismi isə hələlik qeyri-mətbu olaraq mətnləri şairin "Gündəlik"lərinin ayrı-ayrı cildlərinə əlavə olunmuşdur.

**Ədəbiyyatın bəzi nəzəri məsələləri.** H.Razinin "Gündəlik"lərində sənət və sənətkar, bədii ədəbiyyatın mahiyyəti, əsl yazıçının qarşısında duran vəzifələr, poeziya, nəsr, dramaturgiya və digər ədəbiyyat məsələləri ilə bağlı düşüncələrini əks etdirən və özünəməxsus orijinallığı ilə seçilən qeydləri də diqqəti cəlb edir. Onun fikrincə, "əsl yazıçı bütün bəşəri ağrıların düyüm nöqtəsi, qaynama nöqtəsidir. Hansı meridianda atom sınağı, mərmi yarışı, güllə səsi varsa, əsl yazıçı qəlbinin tufanı başlanır. Bu qasırğada dərin bir humanizm, alicənablıq duyğusu hakimdir. Dəryanın bütün titrəyişlərində, qabarma və çəkilmələrində, fırtına axınlarına və dəli küləklərinə sularda məğrurluq heykəli kimi duran qranit qayalar sinə gərdiyi kimi əsl yazıçılar da dünyanın, insan qəlbinin təzadlar cıdırında dayanmışlar...

Əsl yazıçı qələmə aldığı dünyanın gecəsində də, dan yerinin şəfəqlər cilasını görür, günəşin üfüqlər ardındakı parıltısına nəzər salıb bütün varlığı ilə inanır ki, gümanlar durulacaq, ümidlər güləcək, arzuların təcəssümü olan gün gələcəkdir" [3, XVIII cild, s. 38-41].

H.Razinin poeziya haqqında düşüncələri də maraqlıdır: "Əsl poeziya qeyri-adi, bir qədər çılğın, üsyankar, narahat, fövqəladə və dəliqanlı olmalıdır. Müti, mülayim, yazıq, tərəddüdlü, hər fikirlə barışan söz yığınına dönər, cəfəng misralar toplusu olar" [3, XVIII cild, s. 122].

"Sərbəst şeir məni çox məftun edə bilməsə də, bəzən bu ipdən yapışıb kəsərli bir ifadə tapmaq olur" [3, II cild, s. 129] – deyən H.Razi yaradıcılığı boyu bu şeir formasına təsadüfdən-təsadüfə müraciət etmişdir. Bunun səbəbini şair özünəməxsus tərzdə belə izah edir: "Mənə belə gəlir ki, sərbəst şeir publisistikanın bir qoludur. Burada lirikadan çox məntiq və natiqlik qüdrəti tələb olunur. Mən bu qayda ilə tez və tutarlı işləyə bilərəm, lakin o şeir ki, tez yadda qalmır, musiqisi vahid bir qanuna tabe deyildir, milli şeirin nəcib keyfiyyətlərini əks etdirmir, nəhənglərin üslubu ilə uzlaşmır, mən o qayda-qanuna ürəklə səcdə edə bilmərəm" [3, II cild, s. 129].

"Gündəlik"lərdə H.Raziyə məxsus olan bəzi fraqmentlərdə də ədəbiyyat məsələlərinə toxunulur. Bu fraqmentlərdə müəllifin tənqidi ruhu daha çox diqqəti cəlb edir:

"Yaradıcılığın da kor bağırsağı var, vaxtında kəsilməsə bəlalı olur.

Aşbaz menyüdə ramşteks, qramşteks, bifişteks sözlərini oxuyub "hamı şeir yaza bilər", – dedi.

Bədii yaradıcılığın yoluxucu xəstəliklərə qarşı peyvəndə ehtiyacı vardır" [3, VI cild, s. 138].

H.Razinin "Poeziya və futbol" sərlövhəsilə qələmə aldığı fraqmentləri də düşündürücü və ibrətlidir:

Şair də futbolçu kimi həmişə yaxşı formada olmalıdır. Poeziyada da futbol kimi formada olmayanlar bəzən məşqçilik edirlər. Poeziyada da ehtiyat heyətində oturanlar bəzən əsas heyətdən hazırlıqlı olurlar. Poeziyada da komanda kapitanı olmaq məharətdən çox stajla müəyyən edilir. Poeziyada da işin keyfiyyəti şərhçidən çox asılıdır. Poeziyada da pis hücumçu öz qapısından top keçirə bilər. Poeziyada da psixoloji, taktiki və fiziki hazırlıq gərəkdir. Poeziyada da yaxşı toplar bəzən pasla keçir [3, IX cild, s. 4-5].

**Nəticə.** H.Razinin "Gündəlik"lərində öz əksini tapan ədəbiyyat məsələlərinin öyrənilməsi onun istedadlı bir şair olmaqla yanaşı, həm də ədəbiyyat tarixinə və nəzəriyyəsinə yaxşı bələd olan səriştəli bir tədqiqatçı olduğunu aşkara çıxarır. H.Razinin ədəbiyyatın müxtəlif problemləri ilə bağlı fikir və düşüncələri aktuallığı, orijinallığı və yeniliyi ilə diqqəti cəlb edir. Bu fikir və mülahizələrin XX əsrin ikinci yarısında Naxçıvanda elmi mühitin formalaşması və inkişafında özünəməxsus əhəmiyyətli rolu olmuşdur.

## ƏDƏBİYYAT

1. Xəlilov F. Hüseyn Razinin biblioqrafiyası haqqında bir neçə söz / Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. İkinci kitab, Naxçıvan: Əcəmi, 2019, 200 s.
2. Razi H. Gözün aydın (şeirlər və poemalar). Bakı: Azərbaycan, 1996, 232 s.
3. Razi H. Gündəliklər. İyirmi səkkiz cilddə. 1964-1993. Şairin qızı Firuzə Rzayeva tərəfindən qorunan H.Razinin şəxsi arxivi.
4. Razi H. Sahil həsrəti (şeirlər). Bakı: Yazıçı, 1985, 296 s.
5. Razi H. Səsləşən dağlar (şeirlər). Bakı: Azərnəşr, 1970, 148 s.
6. Rzayev Ə. Atam haqqında xatirələrim / Hüseyn Razi: taleyi və sənəti. Naxçıvan: Əcəmi, 2024, 184 s.
7. Vəliyev S. Müəmmalar düzümü, mətanətin dözümü / Xatirələr işığında / Tərtib edən R.Oday. Bakı: Nurlan, 2004, 256 s.
8. Yurdoğlu-Məmmədov E. Naxçıvanda yeni ədəbi qüvvələrin formalaşmasında Hüseyn Razinin rolu və təsiri / Hüseyn Razi: taleyi və sənəti. Naxçıvan: Əcəmi, 2024, 184 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: fermanhalilov@yahoo.com***

**Farman Khalilov**

## LITERARY ISSUES IN THE "DIARIES" OF HUSSEIN RAZI

Some socio-political and literary-cultural processes that took place in Nakhchivan, as well as in Azerbaijan and the Soviet Union, are reflected in the "Diaries" of Hussein Razi, covering a 30-year period (1964-1993). Furthermore, it devotes considerable space to literary concerns.

For the first time, the article presents excerpts from the 28-volume "Diaries" of the poet, which discuss literary issues.

The poet's participation in and speeches at writers' congresses, plenary sessions, anniversaries, and other events held in Nakhchivan, Baku, and outside of Azerbaijan are examined and evaluated. His thoughts on literature's history and theory are also considered.

The author concludes that H.Razi's ideas and considerations of literary issues played a unique and important role in the formation and development of the scientific community in Nakhchivan in the second half of the twentieth century.

**Keywords:** *Hussein Razi, "Diaries", literary problems, literary milieu of Nakhchivan, literary and cultural events.*

**Фарман Халилов**

## ЛИТЕРАТУРНЫЕ ВОПРОСЫ В «ДНЕВНИКАХ» ГУСЕЙНА РАЗИ

В «Дневниках» Гусейна Рази, охватывающих 30-летний период (1964-1993), отражен ход некоторых общественно-политических и литературно-культурных процессов, происходивших в Нахчыване, а также в Азербайджане и Советском Союзе. В нем также большое место уделено вопросам литературы.

В статье впервые приводятся отрывки из 28-томных "Дневников" поэта, в которых рассказывается о проблемах литературы. Исследуются и оцениваются участие и выступления поэта на съездах писателей, пленумах, юбилеях и других мероприятиях, проводившихся в Нахчыване, Баку и за пределами Азербайджана, а также его мысли по истории и теории литературы.

Автор приходит к выводу, что идеи и соображения Г.Рази, связанные с литературными вопросами, сыграли уникальную важную роль в формировании и развитии научной среды в Нахчыване во второй половине XX века.

**Ключевые слова:** *Гусейн Рази, «Дневники», литературные проблемы, литературная среда Нахчывана, литературно-культурные мероприятия.*

**Daxilolma tarixi: İlkin variant 07.01.2025**
**Son variant 10.02.2025**